**Ümumavropa Poçt və Telekommunikasiya Administrasiyalarının Konfransını təsis etmək üçün Əsasnaməyə və göstərilən Konfransın Prosedura Qaydalarına qoşulmaq barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası 1992-ci il sentyabrın 7-də qəbul olunmuş Ümumavropa Poçt və Telekommunikasiya Administrasiyalarının Konfransını təsis etmək üçün Əsasnaməyə və göstərilən Konfransın 1995-ci il sentyabrın 6-da qəbul olunmuş Prosedura Qaydalarına **qoşulsun**.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 2 may 2000-ci il
873-IQ

**Ümumavropa Poçt və Telekommunikasiya Administrasiyalarının Konfransını təsis etmək üçün**

**ƏSASNAMƏ**

(Status: Sentyabr 7, 1992)

**GİRİŞ**

Avropa ölkələrinin Poçt və Telekommunikasiya Administrasiyaları nümayəndələri gələcəkdə aşağıdakılara istinad edərək:

ayrı-ayrı Avropa ölkələrinin Poçt və Telekommunikasiya Administrasiyaları bu sahədə mövcud olan ümumi problemlərin vacibliyini nəzərə alaraq,

Administrasiyalar arasındakı əməkdaşlığın geniş imkanlarından istifadə edilməsini nəzərdə tutan bu nizamnamənin məqsədyönlü olduğuna əmin olaraq,

Digər Avropa ölkələrinin Poçt və Telekommunikasiya administrasiyalarının bu əməkdaşlığa qoşulmaq arzularını və bunun həyata keçirilməsi mümkünlüyünü nəzərə alaraq,

əməkdaşlığın əsas bazasını təyin edən aşağıdakı müddəalar üzrə razılıq əldə etmişlər:

M a d d ə 1

**SERT Nizamnaməsi**

Ümumavropa Poçt və Telekommunikasiya Administrasiyaları «SERT» adlanan təşkilatı yaratmışlar ki, bu da Avropa ölkələrinin Poçt və Telekommunikasiya Administrasiyalarının imzası ilə təsdiqlənmişdir. Bu təşkilatda «Administrasiya» ifadəsi altında milli səviyyəyə, siyasətə, poçt və telekommunikasiya səhəsində ictimai idarəetmə işlərinə məsuliyyət daşıyan təşkilat başa düşülür.

M a d d ə 2

**Beynəlxalq təşkilatlar arasında əlaqə**

1. SERT təşkilatı Avropa İttifaqı ilə, Ümumavropa Azad Ticarət Assosasiyası ilə və digər müvafiq dövlətlərarası təşkilatlarla, Ümumavropa Poçt və Telekommunikasiya sahəsinə aid olan başqa təşkilatlarla da əməkdaşlıq edir.

Poçt və Telekommunikasiyanın kontinental səviyyədə inkişafına nail olmaq məqsədi ilə SERT, bir qayda olaraq, Avropa İttifaqı Komissiyalarının fəaliyyətində onlara Plenar Assambleya və Komitələrin prosedurlarına uyğun şəkildə hərtərəfli kömək göstərir.

2. SERT Ümumdünya Poçt İttifaqı və Beynəlxalq Telekommunikasiya İttifaqının əsas müddəaları özündə əks etdirən regional bir təşkilatdır.

M a d d ə 3

**Üzvlük**

1.Ümumdünya Poçt İttifaqı və yaxud Beynəlxalq Telekommunikasiya İttifaqının üzvü olan hər bir ölkənin Poçt və Telekommunikasiya Administrasiyası SERT və üzv ola bilər.

2.Yeni üzvlərin qəbul edilməsi haqqında qərar SERT üzvlərinin üçdə iki səs çoxluğu ilə həyata keçirilir.

Poçt və Telekommunikasiya Administrasiyaları hər hansı bir ölkədə ayrıca bir təşkilatdırsa, bu Administrasiya yalnız bir səs hüququ ilə təmsil oluna bilər.

M a d d ə 4

**SERT-in vəzifələri**

1.SERT-in vəzifəsi, başlıca olaraq SERT-ə üzv olan ölkələrin administrasiyaları arasında əlaqələrin möhkəmlənməsi, əməkdaşlığın inkişaf etdirilməsi və Avropa Poçt və Telekommunikasiyası sahəsində dinamik bazar iqtisadiyyatının yaradılmasıdır.

2.Əsas funksiyalar aşağıdakılardır:

Post və Telekommunikasiya sahəsində mövcud olan üstünlüklərin və məqsədlərin ümumi görünüşünün tərtib edilməsi;

Avropa kontekstində, Poçt və Telekommunikasiya sahəsini əhatə edən ictimai siyasət və idarəetmə işlərinin nəzərdən keçirilməsi;

münasibətlərin ahəngdarlaşdırılması;

Avropa təşkilatları və digər təşkilatlar, həmçinin Beynəlxalq Poçt və Telekommunikasiya institutları arasında lazımi əlaqələrin qurulması və əməkdaşlıq edilməsi;

Beynəlxalq Poçt və Telekommunikasiya təşkilatları və filiallarının konqres və konfransları üçün ümumi mövqelərin işlənib hazırlanması məqsədi ilə forumun keçirilməsi.

M a d d ə 5

**SERT-in strukturu**

1.SERT-də keçirilən iclaslar bu təşkilata üzv olan Administrasiyaların nümayəndələrini bir araya gətirir.

2.SERT Plenar Assambleyada Poçt və Telekommunikasiya təşkilatlarının strukturları və işlərin aparılmasına dair və bir çox başqa məsəlləri həll etmək üçün müzakirələr apara bilər və bu məsələləri həll edə bilər.

3. Bu təşkilatın fəaliyyəti ilk növbədə Poçt və Telekommunikasiya Komitələrində, onların məsuliyyəti çərçivəsində və Plenar Assambleya tərəfindən göndərilən sorğuların müzakirə edilməsi istiqamətində aparılır.

4. SERT prosedur qaydalarını müəyyən edir. Komitələr özlərinin mümkün qədər oxşar mövqeyini əks etdirən Prosedur Qanununu tərtib edə bilərlər.

M a d d ə 6

**SERT-in sessiyaları**

1.Plenar Assambleya ən azı hər üç ildən bir toplanır.

2.Bu Assambleya üzvlərinin üçdə bir səs çoxluğu ilə vacib olan məqamlarda keçirilə bilər.

3.Bu iclasın keçirilməsi o vaxt qüvvəyə minir ki, üzvlərinin üçdə ikisi iştirak etmiş olsun. Üzvlərdən biri başqası ilə əvəz edilə bilər: bu halda həmin üzvlərin yalnız bir səs hüququ ola bilər.

4.Üzvlərdən hər hansı biri öz fikirlərini və təkliflərini Plenar Assambleyanın müzakirəsinə çıxarıla bilər.

M a d d ə 7

**Müdiriyyət və Katiblik**

1.Plenar Assambleyada SERT İdarəedici Administrasiyasını və onun ofis səlahiyyətlərinin müddətini təyin edir.

2.İdarəedici Administrasiya sədrin təyin edilməsi və Katibliyin işlərinin aparılmasını istiqamətləndirir və Plenar Assambleya üçün müəyyən edir. Plenar Assambleya SERT işlərinin bu Assambleya səviyyəsində davam etməsinə zəmanət verir.

3. İdarəedici Administrasiya daimi administrativ xidmət göstərilməsinə yardım edir.

M a d d ə 8

**Qərarlar**

1.SERT bu sahədə aşağıdakıları edə bilər:

tövsiyələr qəbul edə və bu halda üzvlərin lazım bildikləri əlavələri oraya daxil etməyə sərbəst imkan yarada bilər;

qərarların daha qətiyyətlə həyata keçirilməsini təmin etməyə yönəldilmiş xüsusi tədbirlər həyata keçirə bilər;

sonradan mandator təşkilata çevriləcək işçi quruma aid qərarlar qəbul edə bilər.

2.Yuxarıda (1) şərh olunmuş fəaliyyətlər komitələr tərəfindən öz xüsusi yanaşma tərzləri ilə qəbul olunacaq və 5-ci maddənin (2)-ci bəndində göstərildiyi kimi nəzərdən keçiriləcək.

3.Ümumi bir qayda kimi SERT konsensusa uyğun şəkildə, ya da ki, sadəcə olaraq səs çoxluğu ilə qərarlar qəbul edir və bu halda spesifik qərarlar qəbul edilərkən isə onu ya SERT-in Plenar Assambleyası, ya da SERT-in Komitələrinə çıxarmaq yolu üstün tutulur.

4.Qərarlar həm iclaslar vaxtı, həm də yazışmalar yolu ilə qəbul edilə bilər.

Bu maddədə nəzərdə tutulanlar, SERT-ə üzv dövlətlərin bir-biri ilə və üçüncü tərəflərlə başqaları ikitərəfli və ya çoxtərəfli razılaşmalarla, sazişlərlə, konvensiyalarla və s. təzad təşkil etməməlidir.

M a d d ə 9

**Dillər**

1.Plenar Assambleyaların sənədləri fransız, ingilis və alman dillərində olacaq və bu halda fransız dili əhəmiyyətcə ikinci yerdə olacaq.

2.Plenar iclaslardakı müzakirələr ingilis və ya alman dillərində aparıla bilər.

3.Plenar iclaslarda müzakirələr başqa dillərdə də aparıla bilər, lakin bu halda texniki terminologiyaya İdarəedici Administrasiya icazə verməlidir.

M a d d ə 10

**Maliyyə vəsaitləri**

1.İdarəedici Administrasiya Katibliyin cari xərclərini keçid prosesi bitənə kimi çəkəcək və burada istisna təşkil edəcək hal administrasiya xidmətinin əməliyyat xərcləri olacaq. 7-ci maddədə göstərildiyi kimi, bu xərcləri bütün üzv dövlətlərin administrasiyaları öz aralarında bölüşəcəklər.

2.Plenar Assambleyanın xərclərini bütün administrasiyalar birlikdə çəkəcəklər.

3.Komitələr və İşçi Qrupların Plenar Assambleyanın iclaslarında əlavə keçirəcəkləri şərəf tədbirlərinin xərcini nümayəndələri qəbul edən dövlətin administrasiyası ödəyəcək.

4.Öz nümayəndələrinin səfər xərclərini hər bir administrasiya özü çəkəcək.

5.Xərclərin fərqini üzv ölkələr aşağıdakı altı dərəcəyə böləcəklər:

25 paylı dərəcə

15 paylı dərəcə
10 paylı dərəcə
5 paylı dərəcə
2 paylı dərəcə

6.Birgə ödənişlərə üzv Administrasiyalar öz ödəniş paylarını qoyulacaq müəyyən vaxt intervallarında çatdırmalıdırlar. Gecikdirilən ödənişlərdən faiz tutulacaqdır.

Ödənişin bir ildən yuxarı müddətə yerinə yetirilməməsi səsvermə hüququnun alınması, hətta üzvlük hüququnun itirilməsi ilə nəticələnə bilər. Plenar Assambleya belə qərarları əlahiddə şəkildə və ya iştirakçıların üçdə iki hissəsinin səs çoxluğu ilə qəbul edə bilər.

M a d d ə 1 1

**Qüvvəyə minmə**

1.Bu saziş imzalanandan və təsis edilən yığıncağın iştirakçıları – Administrasiya nümayəndələrinin yarısı tərəfindən təsdiq edildikdən dərhal sonra qüvvəyə minir.

2.Təsdiqetmə barədə İsveçrə Telekommunikasiya Administrasiyasına xəbər verilən kimi, o da öz növbəsində təsis iclasında iştirak edəsi Administrasiyaları məlumatlandıracaq.

M a d d ə 1 2

1.Təqdim olunan sazişə ən azı üzvlərin üçdə biri qədər sayda səslə əlavələr edilə bilər.

2.Əlavələr üçün təkliflərə onun verilməsindən sonra çağırılacaq Plenar Assambleyada baxılmalıdır.

Bu sazişə ediləcək hər bir qərar və ya əlavə SERT üzvlərinin üçdə ikisinin səs verməsi ilə qəbul olunur.

M a d d ə 1 3

**Tərketmə barədə bəyanat**

1.Hər bir üzv üç ay əvvəldən Katibliyə ərizə verməklə, bu qurumun tərkibindən çıxa bilər və bu halda onun bütün tələblərini yerinə yetirilmiş olmalıdır.

2.Katiblik tərketmə barədə qərarla dərhal üzvləri tanış etməlidir.

**SERT Prosedurumun**

**QAYDALARI**

(Status: 6 sentyabr 1995-ci il)

FƏSİL 1

**PLENAR ASSAMBLEYA**

M a d d ə 1

**Sessiyalar**

1.Digər üzvlərlə məsləhətlərə riayət edərək İdarəedici Administrasiya (İA) sessiyanın görüş yerini, tarixini, proqramını və ilkin gündəliyini təyin edəcək.

2.İA Plenar Assambleyanın sessiyasını ən azı hər üç ildən bir çağıracaqdır.

3 ay əvvəldən göndərilən görüş haqqında xəbərdarlıqlar üzvləri bir ay ərzində bütün meydana çıxan səbəblərlə öz təkliflərini təqdim etmək üçün dəvət edəcək. Bu müddət başa çatdıqdan sonra mümkün qədər tez bir zamanda İA üzvlərə sessiyanın ilkin gündəliyini və təkliflərin mətnini göndərəcəkdir.

3.İA Nizamnaməyə müvafiq olaraq yerləşdirilmiş və təsdiq edilmiş tələbdən sonra mümkün qədər tez bir zamanda Plenar Assambleyanın əlavə sessiyalarını çağıracaqdır. Görüş haqqında xəbərdarlıqda ilkin gündəlikdə olan təkliflər sadalanacaqdır.

4.Administrasiyaların nümayəndə heyətləri əlifba sırası ilə mənsub olduqları ölkənin fransızca adına riayət edərək yerləşdiriləcəklər.

5.Beynəlxalq Telekommunikasiya İttifaqının, Ümumdünya Poçt İttifaqının, Avropa Şurasının və Avropa Azad Ticarət Birliyinin daimi orqanlarının nümayəndələri, həmçinin digər müvafiq dövlətlərarası təşkilatlar onların maraqları müzakirə olunan zaman Plenar Assambleyasının görüşündə müşahidəçilər kimi iştirak etmək üçün dəvət olunacaqlar. Müşahidəçilər səsvermə hüquqları olmadan müzakirələrdə iştirak edəcəklər.

6.Avropa Şurasının Komissiyası Plenar Assambleyanın görüşlərində danışmaq hüququ, lakin səsvermə hüququ olmadan iştirak etmək hüququnu verən məsləhətçi kimi Plenar Assambleyanın fəaliyyətində iştirak etmək üçün dəvət olunacaqlar.

M a d d ə 2

**Səlahiyyətli şəxslərin təyin olunması**

İA nümayəndəsi birinci görüşü açacaq və Plenar Assambleyaya sədr, iki vitse-sədr və katib daxil olmaqla özünün səlahiyyətli şəxslərinin təyin olunmasını təklif edəcək.

M a d d ə 3

**Sədrin səlahiyyətləri**

1.Sədr prosedurları aparacaq, natiqləri çağıracaq, təkliflər irəli sürəcək, səsverməyə müdaxilələr edəcək və prosedur qaydalarının yerinə yetirilməsinə nəzarət edəcəkdir. O, sessiyanın fəaliyyətinə nəzarət edəcək və axıracan buna doğru bütün zəruri addımları atacaqdır. O, sessiyanın bağlanmasını elan edəcək.

2.Aşağıdakı sualların biri:

Nizamnamənin və ya prosedur qaydalarının tətbiqi
Əlavələr salınması
natiqlər siyahısının dolması
müzakirələrin bitməsi ilə xüsusilə əlaqədar olan irəli sürülmüş məsələ yoluna qoyulan zaman sədr müzakirəni açacaq və Assambleyanı öz fikrini ifadə etməyə dəvət edəcək.

3.Əgər sədr iştirakdan imtina edərsə, o. vitse-sədrlərin biri ilə əvəz olunacaqdır.

M a d d ə 4

**Səlahiyyətlər**

İştirakdan imtina etmiş və 6-cı maddənin 3-cü bəndində göstərildiyi şərtlər əsasında digər Administrasiyalar tərəfindən təqdim edilmək arzusu bildiriləndə həmin administrasiyanın rəhbərliyi müvafiq olaraq yazılı surətdə Katiblik vasitəsi ilə sədri xəbərdar edəcəklər.

M a d d ə 5

**Səsvermə**

1.Səsvermə nəticəsində qərar o vaxt qəbul olunmuş hesab edilir ki, SERT üzvlərinin 2/3 qismi müsbət rəydə olsunlar.

2.Ümumi qayda olaraq Plenar Assambleya konsensus əsasında hərəkət edir, bu baş tutmadıqda isə sadəcə səs çoxluğu ilə qərar qəbul edir. Müstəsna hallarda müəyyən əlavələr də nəzərdə tutulmuş şəkildə qərara daxil edilir. Lehinə və əleyhinə olan səslər bərabər olduqda məclisin sədri öz səsi ilə məsələni həll edir.

3.Bitərəf qalanlar səsvermə zamanı nəzərə alınmırlar, lakin onların miqdarı səs verənlərin sayına bərabər olduqda səsvermə təxirə salınır və növbəti iclasda yeni səsvermə zamanı səslərin sayı nəticəsində qərar qəbul olunur. Bu halda xüsusi hallar üçün nəzərdə tutulmuş spesifik prosedurlar da tətbiq edilir.

4. Səsvermə sadəcə olaraq əlin yuxarı qaldırılması ilə həyata keçirilir. Məclisin sədri belə qərara alsa, bunu adbaad da keçirmək mümkündür. Bu halda adlar fransız dilində olan əlifba sırası ilə hər bir Administrasiyanın nümayəndəsini əhatə etməklə çağırılır.

5.Seçkinin gizli keçirilməsi barədə xahiş ən azı iki nümayəndəlikdən daxil olmalıdır.

M a d d ə 6

**Təkliflərlə bağlı prosedurlar**

1.Plenar Assambleya 1-ci maddənin 2-ci bəndində nəzərdə tutulan müddətdə təklifləri nəzərdən keçirir. Onlardan hər birinin yoxlanılmaq üçün Komitələrdən birinə və ya işçi qrupuna göndərilməsi mümkündür.

2. 1-ci maddənin 2-ci bəndində göstərildiyi müddətdə və ya sessiya zamanı təqdim edilmiş təkliflər Plenar Assambleyaya verilir. Bu sonuncu isə onları özü araşdıra, sonrakı sessiyaya saxlaya, yaxud da bu bənddən yuxarıda göstərilən instansiyalarla ötürə bilər.

3.Hər hansı nümayəndə tərəfindən təqdim olunmuş təklif hər hansı bir digər nümayəndə tərəfindən müdafiə edilməmişdirsə, ona baxılmır.

4.Prosedur Qaydaları haqqında düzəlişlər, yönümlü təkliflər həmçinin bu maddənin yuxarıdakı 1,2 və 3-ü bəndlərində nəzərdə tutulduğu şəkildə qəbul olunur.

M a d d ə 7

**Protokola əsasən vaxt reqlamentləri**

1.Sessiyaların protokolu vaxt üzrə sessiyaların əsas hissəsinin, formalaşdırılmış təkliflərin, müzakirələrin və onların nəticələrinin prosedur əsasında qısa hesabatını əks etdirəcək.

2.Hər hansı nümayəndə müzakirə edilən müddəalara öz müdaxiləsi zamanı xahiş edə bilər ki, şifahi çıxış əvəzinə onun fikirlərinin mətni sessiya bitənə kimi Katibliyə çatdırılsın.

3.Plenar Assambleyada vacib əlavələr edən iştirakçı üzvlərə protokol dəqiqələri ayrılacaqdır. Həmin müddət iclasın sədri tərəfindən konkret olaraq müəyyənləşdirilir və bu vaxt reqlamenti bitənə kimi fikir ifadəsi başa çatmalıdır.

FƏSİL 2

**KOMİTƏLƏR**

M a d d ə 9

**Üzvlər**

SERT üzvləri müxtəlif Poçt və Telekommunikasiya üzrə SERT Komitələrinin üzvləri olacaqlar.

M a d d ə 10

**Təşkilat**

Nizamnamənin və bu fəslin məsələlərini rəhbər tutaraq, Komitələr özlərini təşkil etmək üçün sərbəst olacaqlar və öz xüsusi prosedur qaydalarını yaradacaqlar.

M a d d ə 11

**Sədr və sədrin müavini**

1.Komitələr öz sədr müavinlərini seçəcəklər və bu barədə İdarəedici Administrasiyaya məlumat verəcəklər.

2.Sədr və sədrin müavinin təyin olunmasına rəhbərlik edən prinsiplər :

Sədr və sədr müavininin seçilməsi üçün əhəmiyyətli meyar səlahiyyət müddətində görülən işlərin yerinə yetirilməsi bacarığı ilə fasiləsiz bağlı olan təcrübə və kvalifikasiya olacaqdır.

Əgər bu, müəyyən coğrafi balansı yaratmaq üçün zərurəti isbat edirsə, sədrin müavini və ya nümayəndələr spesifik görüşlər üzrə müvafiq olaraq nümayəndə heyətlərinə təyin olunacaqlar.

Sədr və sədr müavini eyni administrasiyanın üzvləri olmaya bilərlər.

Sədr müavinliyi sədrlik vakant olan zaman sədrliyin varisi olmayacaqdır.

Prinsipial olaraq sədr və onun müavini 3 il müddətinə təyin olunur və onların belə bir müddətə yenidən seçilməsi mümkündür.

M a d d ə 1 2

**Görüşlər**

1.Komitələr öz sədrləri tərəfindən çağırılacaqdır.

2.Görüşlərə dəvətlər, görüşlərin protokolları və ilkin gündəlikləri bütün üzv administrasiyalara paylaşdırılacaqdır.

3.Ümumi qayda kimi qərar eyni vaxtda üç SERT dilində interpretasiya ediləcəkdir. Lakin ayrı-ayrı görüşlər və ya bir sıra görüşlərlə bağlı bütün üzvlərin əvvəlki Nizamnaməni rəhbər tutması bu qaydadan istisna edilə bilər. Bu cür əvvəlki Nizamnamə görüşü və ya bir sıra görüşlər birinci görüşü təşkil edən üzvlərin təşəbbüsü sayəsində əldə ediləcəkdir, kifayət qədər əvvəlcədən müvafiq praktiki ölçülər götürmək üçün bu üzvlərə imkan veriləcəkdir.

M a d d ə 1 3

**Məlumatlar**

Komitələr öz fəaliyyətləri haqda SERT Katibliyinə məlumat verəcəklər

M a d d ə 1 4

**Qərarlar**

Ümumi qayda olaraq Komitələr ümumi razılıq əsasında hərəkət edir və ya bu alınmadıqda səs çoxluğu ilə qərar qəbul edirlər.

M a d d ə 1 5

**Komitələr arasında məlumat mübadiləsi**

Komitənin sədri bütün vacib inkişaf işləri haqda SERT üzvlərinin məlumatlı olmaqlarını nəzərə alaraq məlumat, sənədlər, raportlar və s.-in mübadiləsi üzrə zəruri işlər görəcəkdir.

M a d d ə 1 6

**Nəşrlər**

Komitələr tərəfindən buraxılmış nəşrlər üçün aşağıdakı qaydalara riayət edilməlidir:

Komitə SERT-in ayrılmaz hissəsi kimi təyin olunmalıdır və SERT atributlarından istifadə etməlidir;

Komitənin rolu daha dəqiq müəyyən olunmalıdır və məhz o fakta əsaslanmaq lazımdır ki, o, SERT-in ayrılmaz hissəsidir;

müvafiq yerlərdə digər Komitə sədri ilə ilkin məsləhətləşmə olmalıdır;

press relizlərin surətləri SERT-in bütün üzv administrasiyalarına göndərilməlidir.

M a d d ə 1 7

**Xarici əlaqələr**

1.Komitələr bu prosedur qaydalarının 1 (5) –ci maddəsində göstərildiyi kimi, təşkilatların daimi orqanları ilə birbaşa əlaqələr yarada bilərlər və onları müşahidəçi və ya məsləhətçi kimi görüşə və ya görüşün xüsusi hissəsinə dəvət edə bilərlər.

2.Komitələr Avropa poçt, telekommunikasiya və digər müvafiq təşkilatlarla bağlı administrasiyalarla əməkdaşlıq və ya məsləhətləşmələr üçün zəruri işləri görəcəklər.

FƏSİL 3

**KATİBLİK**

M a d d ə 1 8

**Rəhbər orqan**

1.Katiblik öz İdarəedici Administrasiyasını öz səlahiyyəti müddətinə təşkil edir.

M a d d ə 1 9

**Funksiyalar**

Katiblik xüsusilə aşağıdakı funksiyaları yerinə yetirəcəkdir:
(a) Nizamnamə və prosedurların qaydaları çərçivəsində carı işlərin aparılması;
(b) Plenar Assambleya sessiyalarının hazırlanması;
(v) büdcənin, hesabların və idarəetmə məlumatlarının yaradılması;
(d) ümumi xərclərə qoyuluş üçün payların müəyyənləşdirilməsi.

M a d d ə 2 0

**Səlahiyyətin təhvili**

Əgər hər şey Plenar Assambleyanın əvvəlki sessiyasında nəzərdə tutulduğu şəkildə düzgün vəziyyətdədirsə, eləcə də ödəniş hesabları qaydasındadırsa, səlahiyyət müddətinin bitməsinə ən azı bir ay qalmış İA bütün işləri yeni təşkil edilmiş İA-ya verir.

FƏSİL 4

**ÜMUMİ ÖDƏNİŞLƏRƏ VERİLƏN PAYLAR**

M a d d ə 2 1

1.Üzvlər onların birgə xərclərə əlavə etdiyi sərmayə qoyuluşundan asılı olaraq aşağıdakı qaydada qruplaşdırılacaqlar:

| | |
|---|---|
| 25-ci sinifli səhm | Almaniya<br>İspaniya<br>Fransa<br>İtaliya<br>Böyük Britaniya və Şimali<br>İrlandiya Birləşmiş Krallığı |
| 15-ci sinifli səhm | İsveç<br>İsveçrə |
| 10-cu sinifli səhm | Avstriya<br>Belçika<br>Danimarka<br>Finlandiya<br>Yunanıstan<br>Norveç<br>Niderland<br>Portuqaliya<br>Rusiya Federasiyası<br>Türkiyə |
| 5-ci dərəcəli səhm | İrlandiya<br>Lüksemburq |
| 2-ci dərəcəli səhm | |
| 1-ci dərəcəli səhm | Almaniya<br>Andorra<br>Bosniya və Herseqovina<br>Bolqarıstan<br>Kipr<br>Xorvatiya<br>Estoniya<br>Macarıstan<br>İslandiya<br>Latviya<br>Keçmiş Makedoniya<br>Respublikası<br>Lixtenşteyn<br>Litva<br>Malta<br>Moldova<br>Monako<br>Polşa<br>Rumıniya<br>San-Marino<br>Slovakiya<br>Sloveniya<br>Çexiya Respublikası<br>Ukrayna<br>Vatikan |

2.Hər bir 1-, 2-,5-, 10- və ya 15-ci dərəcəli səhmin üzvləri xahiş edə bilərlər ki, hər bir zaman məxsus olduqları sinifdən də daha yuxarı sinfə daxil olsunlar.

Üzvlər həmçinin xahiş edə bilərlər ki, hər bir zaman məxsus olduqları sinifdən də aşağı sinfə daxil olunsunlar.

Sinfin hər dəyişikliyi xahişin səlahiyyət müddətinin başlandığı andan effektiv olacaqdır.

3.Ümumi xərclərə qoyuluş etmək öhdəliyi Administrasiya SEPT lə razılaşan ayın birinci günündən başlayır.

4.Ümumi xərclərə sərmayə qoyuluşları ödəniş şərti ilə üzv Administrasiyalarına ödəniləcəkdir.

5.Vaxtında edilməmiş ödənişlərdən faiz tutulur. Faiz məzənnəsi illik 6% (altı faiz) olacaq.

6.Məbləğin bir ildən çox ödənilməməsi halı olarsa, Plenar Assambleya bunlara bir-bir baxacaq və hansı ölçülərin götürülməsini təyin edəcək.

**SEPT-in təqdimatı**

Poçt və Telekommunikasiya Administrasiyasının Avropa Konfransı-SEPT-in 1959-cu ildə 19 dövlət tərəfindən əsası qoyulmuş və sonrakı ilk 10 il ərzində böyüyüb 26 dövləti əhatə etmişdir. Həmin ilkin üzvlər vaxtı ilə telekommunikasiya işini inhisara almaqla həm operator, həm də qanunvericilik funksiyalarını həyata keçirirdilər. 1992-ci ilin sentyabrından isə Milli Qanunvericilik Təşkilatına (NRA) çevrildi və bununla da , həmin iki funksiya – operator işi və qanunvericilik funksiyası müxtəlif təşkilatlara həvalə olundu. Eyni zamanda, 17 yeni dövlət də SEPT-ə daxil olmaqla onun coğrafi hüdudlarını ümumavropa ölçülərinə çatdırdılar.

1988-ci ildə texniki ahəngdarlıq və standartlaşdırma məsələsi o dövrdə yeni yaradılmış ETSİ-nin (European Telecommunications Standarts İnstitute) fəaliyyət dairəsinə daxil oldu. Həmin Ümumavropa Telekom Standartlaşdırılma institutu Cənub-Şərqi Fransanın Nitse şəhərində Sofiya Antipolisində yerləşir.

Avropadakı müvafiq qurumlarla əlaqəni təmin etmək üçün isə ETHO (Avropa Kütləvi Telekom Şəbəkələrinin Assosasiyası) öz idarəsini Brüsseldə açdı.

Poçt təşkilatları isə özünün «Post-Evro» adlanan idarəsini Brüsseldə yerləşdirdi.

Yeni SEPT müstəsna surətdə qanunvericilik işlərinə müstəqil şəkildə baxan üç komitə yaratdı ki, bunlardan biri poçt məsələləri ilə məşğul olan SERP, digər ikisi isə telekommunikasiya işlərini tənzim edən ERK (Avropa Radiorabitə Komitəsi) və EKTRA(Qanunvericilik İşləri üzrə Avropa Komitəsi) adlandırıldı.

Hər komitə işçi qrupu və ya layihə üzr komandalar təsis etdi ki, bunlar da ierarxiya üzrə yuxarıdan aşağı SEPT –də üçüncü pillə oldu. Bu komitələr öz işçi qrupları və ya layihə komandaları fasiləsi ilə işçi qrupları və ya layihə hazırlayan komandaları vasitəsi ilə zəmanətlər tərtib edə və qərarlar verə bilərlər. SEPT-in Plenar Assambleyası bu komitələrin çıxardıqları qərarları daha yüksək səviyyələrdə təsdiq etmək lazım gələndə çağırılır.

Qərar qəbul edilməsi mexanizmi əvvəlcə ERK tərəfindən Avropadakı xidməti təşkilatlarla tezlik zolaqları sifariş olunub ayrılması ilə başlanır. Nömrələmə mərhələsi gələndə isə işə EKTRA öz prosedurаları ilə qoşulur.

6 may 1991-ci ildə ERK Kopenhagendə daimi idarə açdı və onun adını EPO (Avropa Radiorabitə təşkilatı) qoydu, onun fəaliyyəti ERK –i dəstəkləməyə yönəldildi və Avropa Komissiyasının tapşırığı ilə Avropa Telekommunikasiyası üzrə tədqiqatlar aparılması ona həvalə edildi.

1994-cü ilin 1 sentyabrından EKTRA da həmçinin Kopenhagendə öz daimi idarəsini açdı. ETO adlanan həmin ofisin də fəaliyyəti eyni məqsədə - Avropada telekommunikasiya işlərinə həsr edilmişdir.

1995-ci ilin 1 sentyabrında SEPT-in Veymarda keçirilən Plenar Assambleyası bu qərara gəldi ki, özünün Berndəki əlaqələndirici idarəsini bağlasın və onun vəzifələrini, eləcə də inzibati idarəetməni iki daimi işləyən idarə – ERO və ETO arasında bölüşdürsün. İnzibati idarəetmə işi isə 1998-2000-ci illər dövründə Norveçin üzərinə qoyulmuşdur. SEPT-in ETO-da yerləşən Məlumat stolu işlərin ümumi gedişindən xəbərdar almaq və məlumatlar çatdırmaq tələb edilərkən, həmçinin SEPT-in arxivini kamil şəkildə saxlamağa xidmət edir.

SEPT özünün Veymarda 5-6 sentyabr 1995-ci ildə keçirilən ali məclisində öz rolunu aşağıdakı kimi müəyyənləşdirmişdir:

SEPT öz üzvlərinə imkan verir ki:

ümumavropa forumu çağırıb, poçt və telekommunikasiya işlərinə aid müstəqillik və qanunvericilik işlərini müzakirəyə çıxarsın;

təşkilatın üzvləri bir-biri ilə müstəqil qanunvericilik məsələlərində yardım etsinlər;

Avropa poçt və telekommunikasiyanın ümumi vəzifələrini əsas götürməklə məqsəd və vəzifələri ortaya çıxarsınlar;

öz məsuliyyətləri altında olan sahələrdə poçt və telekommunikasiyanın funksiyalarını dəqiqləşdirsinlər;

ümumavropa səviyyəsində fəaliyyət göstərsinlər;

Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlığı genişləndirsinlər və qüvvətləndirsinlər;

Avropadakı qanunverici təşkilatlarla əlaqələri (fərdi əlaqələr zəminində) qüvvətləndirməli və daha məhsuldar etdirməlidirlər;

ümumi vəzifə borcları çərçivəsində BTİ və BPİ ilə ümumavropa məqsədləri əsasında əlaqələrin daha da inkişafına təsir göstərməlidirlər;

yeni vəziyyətlərdə qeyri-bürokratik, səmərəli şəkildə reaksiya verməli və bunu imkan daxilində vaxtında etməli;

ümumi problemləri komitələr səviyyəsində və komitələrarası sıx əməkdaşlıq şəraitində həll etməlidirlər;

lazım gələrsə, fəaliyyətə yeni templər tətbiq etməli;

poçt və telekommunikasiya sektorları üzrə vahid Avropa yaratmalı.

SEPT-in sədri c-b Pyer Sandrud 47 22 82 4880 47 22 82
4890

SEPT-in Məlumat stolunun
rəhbəri x-m Suzanna Heyv 45 35 43
2552

ERK-ın sədri c-b P.Karey 353 1 804 9600 353 1 804
9680

EKTRA-nın sədri c-b F.Riyel 41 32 327 5454, 41 32 327
5466

SERP-in sədri c-b C.L.Dutrdoylt 32 2 226 88, 32 2 226
87

ERO-nun direktoru c-b Tom Bou 45 35 25 0301, 45 35 25 0330
ETO-nun direktoru c-b Bernhard Spor 45 35 43 8005, 45 35 43 6005

**SEPT-in coğrafi ərazisi**
**Almaniya (İdarəetmə Təşkilatı)**

1. Məsələnin başlanğıcı

SEPT-in yaradılması üzrə Razılaşmanın 3-cü maddəsinin 1-ci paraqrafına əsasən UPİ-nin (Ümumittifaq Poçt İttifaqı) yaxud BTİ-nin (Beynəlxalq Telekommunikasiya İttifaqı) üzvləri olan Avropa ölkələrinin Təşkilatı SEPT-in üzvləri ola bilərlər.
«Avropa ölkəsi» meyarı keçmişdə SEPT üçün heç bir problem yaratmamışdır. Hər şey bu günlərdə Uzaq Şərqdə yerləşən SEPT-də maraqlı olan ölkələrlə birlikdə dəyişmişdir.

2. Digər təşkilatlarda vəziyyət

19 fevral 1993-cü il tarixli məktubda Avropa Şurasının Baş katibindən öz təşkilatının bu meyarı necə izah etməsi haqda məlumat verməsi xahiş olunmuşdur.
15 mart 1993-cü ildə bu mövzu ilə əlaqədar son cavab verilmədən cavab və izahatlar və məlumatlar daxil olan sənədlər aldıq. Bu sənədlərdən ən vacib çıxarışlar aşağıdakı paraqraflarda verilmişdir.

3. Avropa Şurasının sənədlərindən çıxarışlar

Çıxarışlar Avropa Şurası Parlament Assambleyasının «Avropa Şurasının inkişafı üzrə MƏLUMAT HESABATI» üzrə 16 iyun 1992-ci il tarixli 6629 nömrəli Sənəddən götürülmüşdür.
Aşağıdakı elementlər, xüsusilə paraqraf 3.4-də müəyyən olunmuş əsl şərq sərhədi SERT üçün bələdçilik xarakteri daşıya bilər.

3.1 Avropa şərti

Avropa Şurası Nizamnaməsinin üzv ölkədən Avropa Kontinentinin bir hissəsi olmağı tələb edir.
Buna baxmayaraq, təsisçi ölkələr üzv ölkənin milli ərazisinin tamamilə Avropada yerləşməsini tələb etmir. Məsələn, Türkiyə Respublikası tam üzv kimi qəbul edilmişdir.
Əvvəlki şərt olduğu kimi qalır ki, yalnız qismən Avropa kontinentində olması nəzərdə tutulan ölkə Avropa mədəniyyətinə qoşulmalıdır və özünü Avropa ölkəsi kimi görməlidir.

3.2 Avropanın sərhədlərinin təyini

Coğrafi nöqteyi-nəzərdən Avropa digər kontinentlər kimi dəqiq bir surətdə müəyyən oluna bilməz, ona görə ki, bu "köhnə kontinent"ə əvvəllər həmişə Asiya qitəsi ilə birlikdə götürülmüş halda yanaşılır, bəzən isə Avropaya Asiyanın yarımada şəkilli əlavəsi kimi qiymət vermək təəssüratı da olurdu.
Bu səbəbdən Avropa kontinent kimi həmişə tarixi və mədəni baxımdan ayrıca qiymətə malik olmuş, əsrlər boyu Avropanın inkişafı əlahiddə və fərqli bir şəkildə davam etmişdir.
Avropa sərhədlərinin nəzəri müzakirəsinin Avropa Şurasının mənəvi atalarına heç bir aidiyyəti ona görə yoxdur ki, əvvəllər bu məsələ üzrə heç bir potensial cəhətdən tədqiqat tələb edən elə bir mübahisəli sərhəd problemi olmamışdır.

3.3 Avropanın şərq sərhədlərinin nadəqiqliyi

Hətta indinin özündə belə Avropanın öz şərq sərhədlərini təyin etmək niyyəti yoxdur. Çar Rusiyası dövründə Avropa ilə Asiya arasında olan bir çox dövlətlərin zəbt olunub Rusiyaya qatılması üzündən bu iki qitə arasındakı sərhədləri konstitusion və ya beynəlxalq hüquq normaları tətbiq etməklə Rusiyadan kənarda müəyyənləşdirmək cəhdi olmamışdır.
Sovet İttifaqının dağılmasından və sosialist respublikaları adlanan respublikalara ayrılmasından sonra Rusiya Sosialist Federativ Respublikası inzibati vahidlərə bölünmüşsə də, Avropa ilə Asiyanı bir-birindən ayıran mondator xəttinin təyini üçün heç bir sərhəd məsələsinə baxılmamışdır.

3.4. Şərqi demarkasiya xətti

Kütləvi müzakirələrdə işlədilən «Avropa Atlantik okeanından Urala qədərdir» şüarı Fransanın keçmiş Prezidenti Şarl de Qoll tərəfindən meydana atıldıqdan sonra belə bir rəsmi status almışdır. Avropa ilə Asiya arasında orta Bosfor boğazından Qara dəniz üzrə Ural çayının şərqinə, Ural çayına doğru bütöv bir istiqamət üzrə və son olaraq Ural dağlarının zirvəsi boyunca Avrasiya ərazi massivinin kənarına doğru uzanan bölünmə xətti meydana çıxmışdır.
Əgər bu xətdən kontinent üçün sərhəd yaratmaqda istifadə edilməli olsaydı, bu bölgü kifayət qədər dəqiq olmazdı. Lakin bu iki kontinent arasında milli, yaxud beynəlxalq qanunla ayrılmaq üçün elə bir zərurət hal-hazırda nəzərdə tutulmur.
Baxmayaraq ki, Avropa Şurasının üzv dövlətləri bu günə qədər Ural xəttinin təsdiq olunmasından uzaq dururlar, Şura onun Avropanın şərq sərhəd ayrılması olduğunu qəbul etməlidir.

3.5. Potensial üzv dövlətlər

Aşağıdakı xüsusiyyətlər əsasında Avropa Şurasının üzv dövlətləri Avropa ölkələri hesab olunmalıdırlar:
Avropa Şurasının mövcud 27 suveren üzv dövlətlərinə əlavə olaraq kontinentin şərqində və cənub-şərqindəki aşağıdakı ölkələr də Avropa dövlətləri hesab olunurlar:
a) Baltika hövzəsində: Estoniya, Latviya, və Litva;
b) Rusiya Federasiyasının cənub tərəfində: Belorus, Ukrayna və Moldova;

v) Balkanlarda: Albaniya, Rumıniya, Bosniya-Herseqovina, Xorvatiya, Slovakiya və s.
q) Qafqazda: Ermənistan, Azərbaycan və Gürcüstan.

### 3.6. Rusiya Federasiyası

Rusiya Federasiyası xüsusi rola malikdir. Onun dövlət idarələri və başlıca siyasi mərkəzi, şübhəsiz ki, avropada yerləşir, hətta respublikanın böyük əraziləri Asiya ərazilərindədir.

Rusiyanın coğrafi vəziyyəti onun Avropa Şurasının üzvü olmasına haqq verir, lakin Avropa Şurası tərəfindən üzvlük üçün digər şərtlər də tələb olunur.

### 3.7. Asiyanın keçmiş Sovet respublikaları

Keçmiş Sovet respublikaları olan Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan
3.4-cü maddədə qeyd olunduğu kimi təbii ki, Avropa sərhədlərindən kənarda yerləşirlər.

### 4. Təklif

SEPT-in coğrafi ərazisinin yuxarıdakı 3.4-cü maddənin birinci paraqrafındakı kimi müəyyən olunması təklif olunur.

SEPT üzvlərinin 2/3 qisminin razılığının tələb olunduğu qərarın çıxarılması və üzv qəbul olunmaq üçün xahişlər bu ərazidə yerləşən və BPİ-nin, yaxud BTİ-nin üzvləri olan ölkələrin poçt və telekommunikasiya Administrasiyaları tərəfindən təqdim olunmalıdır.

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2692-2708.